UOT: 342 (025.4)

**Natiq Mürsəlov,**
*doktorant*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç., 26*
natiq.doktorant@mail.ru

# ƏQLİ MÜLKİYYƏTİN SƏNƏD-İNFORMASİYA TƏMİNATINDA KİTABXANA XİDMƏTİNİN FUNKSİYA VƏ PRİNSİPLƏRİ

**Açar sözlər:** *intellektual fəaliyyət, müəlliflik hüququ, layihə, patent, mühafizə*

**Giriş.** *Azərbaycanın müstəqillik dövründə qanunun aliliyi tam bərqərar olmuş demokratik və azad dövlət, şaxələnmiş müasir iqtisadiyyat, daha da zənginləşmiş mədəniyyət insan resurslarının inkişafına mühüm təsir göstərir. O, əhalinin rifah halının yüksəldilməsinə möhkəm dayaq olaraq bütün sahələrdə yaradıcı fəaliyyətə güclü təkan verir. Şübhəsiz, bunlar yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən strategiyasının reallaşması, yeniləşən şəraitdə onun ölkə rəhbəri, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən müntəzəm və ardıcıl davam etməsinin bəhrələridir.*

*Gələcəyə yönəlmiş bu məqsədyönlü strateji siyasi kursun reallaşma nəticəsində doğma vətənimiz - Azərbaycan XXI əsrin olduqca kəskin çağırışlarına sinə gəlmiş, global siyasətin qurduğu mürəkkəb, ziddiyyətli-dəyişkən beynəlxalq, regional və dövlətdaxili şəbəkədə milli maraqlara qulluq edən düzgün addımlar atmağa müvəffəq olmuşdur. Bu siyasətin əsas diqqət yetridiyi sahəslərdən birinin vətəndaşların əqli mülkiyyət hüququnun təminatı olması heç də təsadüfi deyildir. Ona görə ki, əqli fəaliyyətin nəticələri olan məhsul ona daxil edilmiş yaradıcı ideyalar baxımından dəyəri olan informasiyadan ibarətdir. Bu informasiya kommersiya dəyərinə malikdir. Necə ki, öz əməyi ilə maddi əşyanı yaradan şəxsin həmin əşyaya mülkiyyət hüququ yaranır, eləcə də yaradıcılıq nəticəsində, intellektual əməyin bəhrəsinə və yaradılmış informasiyaya da onu yaradan şəxsin mülkiyyət hüququ yaranır. Beləliklə, insanın öz intellektual əməyinin nəticələrindən istədiyi kimi istifadə etmək kimi ayrılmaz hüququ "Əqli mülkiyyət" anlayışını əmələ gətirir. "Əqli mülkiyyət" anlayışına daxil olan obyektlərin (ixtira, əsərlər, kəşf və s.) öz sahibləri vardır və əqli mülkiyyət hüquqları onlara məxsusdur.*

**Əsas mətn.** Avropalı görkəmli mütəfəkkirlər Mur və Lanhamın düşüncələrinə görə intellektual mülkiyyət özünəməxsus zəkanın nəticəsi olan qeyri-fiziki xarakterə malik mücərrəd anlayışdır. Mark Lemleyin fikrinə əsasən intellektual mülkiyyət patentlər və ticarət markaları, habelə müəllif hüquqlarının mənafelərini özündə birləşdirən termindir. Bred Şerman isə belə hesab etmişdir ki, bu anlayış hər hansı şəxsin və ya müəssisənin onu konkret olaraq öz mülkiyyəti bilməsi və qanunla qorunmasının vacibliyini düşünməsi məsələsini özündə əks etdirir. Ümumdünya Əqli Mülkiyyət Təşkilatının İsveçrədə olan qərargahının üzərində Doktor Arpad Boqşa aid bu dəyərli sözlər qeyd olunmuşdur: *"Bütün kəşflər və bədii əsərlər insan zəkasından formalaşır. Onlar insanın keyfiyyətli həyatını təmin edir və onların istənilən növünün hüquqi müdafiəsi dövlətin vacib borclarından biridir"* [1].

Müstəqil Azərbaycan Respublikasında "inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq" məqsədinə nail olmaq üçün əqli mülkiyyət sistemi üçün münbit şəraitin yaradılması müstəsna (əvəzolunmaz) əhəmiyyətə malikdir. Bu, əqli mülkiyyətin və ona əsaslanan fəaliyyət növlərinin yaradıcılıq, yenilikçilik, kreativlik meyarları üzərində köklənməsindən irəli gəlir. *"Dövlətimizin bu cür fəaliyyəti məhz öz qayğısı ilə stimullaşdırması nəticəsində Azərbaycanda çoxşaxəli əqli mülkiyyət sisteminin yaranması olduqca mühüm faktorlardan birini təşkil edir"* [2]. Təsadüfi deyildir ki, yeni əqli mülkiyyət obyektlərinin yaradılması və

onlardan səmərəli istifadənin stimullaşdırılması, beynəlxalq əməkdaşlıqda ölkəmizin bərabərhüquqlu və etibarlı tərəfdaş kimi qəbul olunması, sahənin modernləşdirilmiş infrastrukturunun, daha mükəmməl normativ-hüquqi bazasının yaradılması, hüquqların təminatı və informasiya mübadiləsinin gücləndirilməsi, olduqca mühüm olan əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması, hüquq sahiblərinin (müəlliflər, onların vərəsələri, ifaçılar, fonoqram istehsalçıları, yayım təşkilatları və s.) hüquqlarının qorunması Azərbaycan dövləti üçün əsas vəzifələrdən sayılır.

Araşdırmalar göstərir ki, son illər Azərbaycan iqtisadiyyatının inkişafında əqli mülkiyyətin rolu əhəmiyyətli dərəcədə artmışdır. Eyni zamanda, əqli mülkiyyət hüquqlarının təminatının gücləndirilməsinə xüsusi diqqət yetirilir. Bu, səbəbsiz deyildir. Çünki, müəlliflik hüququ, əlaqəli hüquqlar, patentlər, əmtəə nişanları hazırda texnologiyaların və cəmiyyətin inkişafında mühüm yer tutur. Bununla yanaşı, əqli mülkiyyət hüquqlarının təminatında problemlər də mövcuddur. Bu problemlərlə daha az rastlaşmaq üçün əqli mülkiyyət hüquqlarının sənəd-informasiya təminatı sisteminə bələd olmaq lazımdır.

Bu səbəbdən cəmiyyətin əqli mülkiyyətlə bağlı sənəd-informasiya təminatını mümkün qədər tam, operativ şəkildə həyata keçirmək üçün müasir informasiya fəaliyyətinin mühüm tərkib hissəsi olan kitabxana-biblioqrafiya xidmətini mükəmməl formada öyrənmək vacib məsələlərdən biridir. Bu məqsədlə kitabxanalarda əqli mülkiyyət obyektləri ilə əlaqədar formalaşan zəngin sənəd-informasiya ehtiyatları fondları və toplanmış resursların sistemli ictimai istifadəsinin təşkilini, yəni tələbatçılara göstərilən xidmətin əsas cəhətlərini bilmək mühüm aktuallıq kəsb edir.

*"Əqli mülkiyyət üzrə kitabxana-informasiya xidmətinin obyekti sənədlərdən və informasiya istifadəçilərindən ibarətdir"* [3]. Bu xidmətin əsas vəzifəsini insanın müəlliflik münasibətləri obyektləri, əlaqəli hüquqlarla bağlı obyektlər, patent münasibətləri obyektləri, fərdiləşdirmə vasitələri və qeyri-ənənəvi əqli mülkiyyət obyektləri ilə əlaqədar informasiya istifadəçilərinin yaranan sənəd-informasiya tələbatının və əqli mülkiyyət üzrə sənədlərin öyrənilməsi, eləcə də xidmət prosesində onlardan səmərəli istifadə edilməsi təşkil edir.

Əqli mülkiyyət üzrə kitabxana-informasiya fəaliyyətinin əsasını təşkil edən əqli mülkiyyət xidmətinin vəzifələri onun funksiyalarında təzahür edir. Həmin funksiyalara aşağıdakılar daxildir:

- elmi-köməkçi funksiya;
- tövsiyə funksiyası;
- kommunikativ funksiya;
- axtarış funksiyası;
- yekunlaşdırma funksiyası;
- pedaqoji funksiya;
- kütləviləşdirmə funksiyası.

Elmi-köməkçi funksiyasını xarakterizə edən cəhət ondan ibarətdir ki, bu vasitə ilə əqli mülkiyyət sahəsinin elmi informasiya ilə təmin olunması həyata keçirilir. Bu funksiya özünü həm də onunla təzahür edir ki, o, əqli mülkiyyət üzrə tələbatçıların mühüm qismi olan alim və tədqiqatçılara, eləcə də təbiət və texniki sahələr üzrə təhsil alan tələbələrə və magistrantlara ünvanlanır. Şübhəsiz, bu sahədə formalaşmış elmi biliklər bütün digər fəaliyyət sahələrinə geniş nüfuz edir, əqli mülkiyyətə daxil olan elm və fəaliyyət sahələri bir-biri ilə daha sıx inteqrasiya olunur. Həmin xidmət vasitəsilə tədqiqatçılar öz sahələrinə dair yeni sənədlər barədə dolğun və operativ məlumat əldə edirlər.

Kitabxanaçı (biblioqraf) tərəfindən elmi-köməkçi funksiyasının həyata keçirilməsi prosesində əqli mülkiyyət üzrə sənəd axını diqqətlə təhlilə cəlb olunur. Bu zaman elm sahəsi üzrə meydana gələn demək olar ki, bütün sənədləri kitabxana-informasiya təminatı sistemi ilə tələbatçılara təqdim edir. Belə bir cəhəti xüsusi vurğulamaq yerinə düşər ki, sənəd axınını

təhlil edən kitabxanaçı (biblioqraf) əqli mülkiyyət sahəsi üzrə kifayət qədər biliyə malik olmalı və onun əsasında sənəd axınını tam aşkara çıxararmağı bacarmalıdır. Sənəd axınını əqli mülkiyyətin kitabxana-informasiya təminatı baxımdan dolğun əks etdirilməsinə diqqət yetirmək də çox vacib məqamlardan biridir.

Əqli mülkiyyət xidməti üçün əhəmiyyətli funksiyalardan biri də tövsiyə funksiyası hesab edilir. Ona görə ki, bu funksiya cəmiyyətin geniş kütlələrinin əqli mülkiyyət üzrə ətraflı məlumat əldə etməsinə münbit şərait yaradır. Onların yaradıcılıq fəaliyyətinə, əqli mülkiyyətlə bağlı təhsilinə, peşə səviyyələrinin yüksəlməsinə, idrak və bilik dairəsinin genişlənməsinə müstəsna yardım göstərir.

Kommunikativ funksiya onunla xarakterizə olunur ki, əqli mülkiyyətlə məşğul olan idarə və müəssisələr, mərkəzlər, kitabxanalar bu sahə üzrə sənəd axını və kütləsinin biblioqrafik modelini yaradır. Eyni zamanda həmin biblioqrafik informasiyanı cəmiyyətdə yaymaqla sənəd-informasiya və biblioqrafik əlaqələrin yaranmasını dəstəkləyir. Bu funksiya təkcə əqli mülkiyyət xidməti ilə məşğul olan qurumlar vasitəsilə deyil, həmçinin alim və mütəxəssislərin özlərinin iştirakı ilə də (patentlərdə, məqalələrdə, elmi hesabatlarda, kitablarda və s. verilmiş biblioqrafik siyahılar) həyata keçirilir.

Axtarış funksiyası əqli mülkiyyət xidmətinin mədəniyyətin, fundamental təbiət elmlərinin, texnikanın və digər elm və praktik fəaliyyət sahələrinin inkişafı üçün vacib olan əhəmiyyətində təzahür edir. *"Əqli mülkiyyət obyektləri ilə əlaqədar elmi tədqiqatların, texniki yaradıcılığın texnoloji ardıcıllığının ilk pilləsi yeniliyin, tədqiqatın mövzusunu dəqiqləşdirməkdən və problemin əvvəllər hansı səviyyədə öyrənilməsini tədqiq etməkdən ibarətdir"* [4].

Məlumdur ki, hər hansı bir alim və ya tədqiqatçı əqli mülkiyyət obyektləri ilə bağlı yaradıcılıq fəaliyyətinə başlamadan öncə mütləq elmi problemlərin öyrənilməsi tarixi ilə maraqlanır. Əqli mülkiyyət xidmətinin axtarış funksiyası da məhz bu zaman meydana çıxır. Alim və ya ona yardım edən kitabxanaçı (biblioqraf) problemlə əlaqədar əvvəllər nəşr olunmuş məqalələrin, kitabların və s. mənbələrin aşkara çıxarılması və bunun əsasında problemin nə dərəcədə öyrənilməsini müəyyən edir. Axtarış funksiyası təkcə retrospektiv deyil, həm də cari axtarış zamanında təzahür edir. Elmin, texnikanın inkişafının xüsusi sürətlə gedən sahələrində problem üzrə ən yeni məlumatın əldə edilməsi, məhz cari ədəbiyyatın axtarışı nəticəsində baş verir. Həm retrospektiv, həm də cari axtarışın yerinə yetirilməsi üçün mövzu və zaman çərçivəsi dəqiq müəyyənləşdirilir.

Yekunlaşdırma funksiyasının əksər elm və texniki yaradıcılıq fəaliyyəti üçün xüsusi əhəmiyyəti danılmazdır. Belə ki, hər hansı elm və texnika sahəsində ixtiraçılıq üzrə yerinə yetirilmiş işlər və ya praktiki fəaliyyətin vəziyyəti haqqında dolğun məlumat əldə etmək üçün həmin sahə üzrə nəşr edilmiş bütün sənəd kütləsi tam əhatə olunmalıdır. Bu prinsiplə təyin olunmuş mənbə retrospektiv biblioqrafik vəsaitdir və onun tərtibi zamanı ədəbiyyat kütləsinin mümkün qədər əhatə olunmasına səy göstərilməlidir. Deməli, yekunlaşdırıcı funksiyanın yerinə yetirilməsi əqli mülkiyyət xidməti ilə məşğul olan müəssisədən bu sahəyə geniş xronoloji əhatəli dolğun retrospektiv biblioqrafik göstərici hazırlanmasını tələb edir. Dünyanın bir sıra ölkələrində texniki yaradıcılıq, patent işinə dair biblioqrafik vəsaitlər hazırlanır. Respublikamızda bu cür biblioqrafik mənbələrin hazırlanması ilə daha çox Azərbaycan Milli Elmlər Akademiyasının bir sıra institut və digər elmi-tədqiqat müəssisələrinin kitabxanaları, eləcə də Əqli Mülkiyyət Agentliyinin nəzdində Respublika Elmi-Texniki Kitabxanasının əməkdaşları məşğul olur.

Bildiyimiz kimi, əqli mülkiyyət xidməti təkcə elmin tələbatını ödəməklə kifayətlənmir. O, həm də böyüməkdə olan nəslin bu sahədə maariflənməsi və ətraflı bilik əldə etməsinə kömək edir. Pedaqoji funksiyanın xarakterik cəhəti də ondan ibarətdir ki, əqli mülkiyyət xidməti üçün hazırlanan kitabxana-informasiya məhsulu xüsusi olaraq gənc nəslin

mütaliəsinə yardım etmək, onların savadlı böyüməsinə kömək məqsədi daşısın. Kitabxana-informasiya mənbələrində ölkənin intellektual sərvətlərinin təbliği, onun elmi və texniki inkişafı barədə məlumatın verilməsi gənclərin həmin sahələrlə məşğul olmasına maraq oyadır. Bu səbəbdən, əqli mülkiyyətin pedaqoji funksiyası gənc nəslin əmək fəaliyyətində, elmi yaradıcılıqla məşğulunda bünövrə rolunu oynayır.

Bu funksiyanın reallaşmasına xidmət göstərən mənbələr bir qayda olaraq orta məktəb şagirdləri, lisey və kolleclərdə oxuyan gənclərə ünvanlanır. Pedaqoji funksiya böyüməkdə olan nəslin həyata hazırlanmasında, onların tərbiyəsində, savadlanmasında xüsusi əhəmiyyətə malikdir. Bu funksiyanın həyata keçirilməsinin əsas yolu kitabxanada yerinə yetirilən tövsiyə biblioqrafik fəaliyyətdir. Xüsusilə də, ixtiraçılıq, patent sahəsi üzrə tövsiyə xarakterli göstəricilər məktəblərdə, tədbirlərdə, əməklə məşğul olan gənclərdə patent informasiyası sahəsində biliklərin formalaşmasına, onların düzgün istiqamətdə tərbiyəsində mühüm əhəmiyyət daşıyır.

Kütləviləşdirmə funksiyası əqli mülkiyyət xidmətinin yerinə yetirdiyi sonuncu funksiyadır. Öz mahiyyəti etibarilə pedaqoji funksiyaya yaxın olsa da, müəyyən mənada ondan fərqli cəhətlərə malikdir. Əgər pedaqoji funksiyada aparıcı istiqamətlər tərbiyələndirmə və dünyagörüşünün formalaşmasına yardım etməkdirsə, kütləviləşdirmə funksiyasında isə əsas vəzifə əqli mülkiyyətin ayrı-ayrı sahələrində nailiyyətlərin mümkün qədər geniş ictimai auditoriyaya çatdırılması və insanlarda ilkin biliklərin formalaşdırılmasıdır. Belə biliklərin olması insanlarda nəinki düzgün peşə seçiminə xidmət edir, həm də onların gündəlik fəaliyyətinin daha uğurlu şəkildə yerinə yetirilməsinə yardım edir. Belə bir vəzifənin yerinə yetirilməsində kitabxanaçı (biblioqraf) əqli mülkiyyə sahəsi üzrə elmi-kütləvi ədəbiyyatı, bu sahə üzrə nəşr edilən elmi-kütləvi jurnalları öyrənməli və onlar haqqında informasiyanı tələbatçılara çatdırmalıdır.

Əqli mülkiyyət xidmətinin ictimai məzmununu anlamaq və əhəmiyyətini düzgün qavramaq üçün onun prinsipləri haqqında da təsəvvür əldə etmək mütləqdir. Onun əsas prinsiplərini elmilik və obyektivlik təşkil edir. Bu prinsiplərə əsaslanmaq əqli mülkiyyət xidmətinin daha yüksək keyfiyyətlə həyat keçirilməsinə imkan verir. Həmçinin, əqli mülkiyyət xidmətinin funksiyalarının müvəffəqiyyətlə həyata keçirilməsində onun prinsipləri vacib rol oynayır.

Elmilik prinsipi onunla təzahür edir ki, əqli mülkiyyət sahəsinin kitabxana-informasiya xidməti təşkil olunarkən müasir dialektik fəaliyyətin nəticələri əsas götürülür. Materialist fəlsəfə insanın təbiətlə qarşılıqlı əlaqəsi olan bioloji və sosial amillərin dialektikasını, əqli mülkiyyət üzrə proseslərin ictimai amillərlə şərtlənməsini müəyyənləşdirir. O, elmi biliyin inteqrasiya edilməsi ilə kompleks tədqiqatların aparılmasına imkan yaradır. Bu prinsip əqli mülkiyyətin ayrı-ayrı sahələrinin insanın bilik və elmlər sistemindəki mövqeyini düzgün qiymətləndirir. Təbiət elmləri, kənd təsərrüfatı, texnikanın müasir elm və fəaliyyətlər sistemindəki mövqeyinin düzgün dərki, bu sahənin kitabxana-informasiya təminatı ilə məşğul olan mütəxəssisə aşkara çıxarılan sənədləri dərk edilmiş formada seçməyə və analitik-sintetik işləməyə imkan verir.

Elmilik prinsipi, xüsusilə də mövzu xarakterli kitabxana-informasiya mənbələrinin hazırlanmasında düzgün metodologiyadan istifadə etməyə yardımçı olur. Əqli mülkiyyət xidmətinin elmiliyi bu sahə üzrə cari kitabxana-informasiya mənbələrinin tərtibində öz əksini tapır. Belə mənbələrdə konkret elmin müasir vəziyyəti, onun bölmələri düzgün şəkildə şərh edilir və həmin elmin daxili quruluşuna görə təsnifləşdirilir.

Obyektivlik prinsipinin isə mahiyyəti ondan ibarətdir ki, əqli mülkiyyət xidməti zamanı kitabxanaçı (biblioqraf) həmin sahələrin tədqiqatlarını bu sahədə praktiki fəaliyyət barədə topladığı informasiya ilə dürüst obyektiv əks etdirsin. Bu zaman kitabxanaçı (biblioqraf) öz şəxsi münasibətindən irəli gələn yanaşma, təhlil və qiymətləndirməyə imkan

verməməlidir. Obyektivlik prinsipi əqli mülkiyyət xidmətində kitabxana-informasiya mənbələrinin hazırlanmasında da nəzərə alınmalıdır.

**Nəticə.** *Beləliklə, əqli mülkiyyət üzrə kitabxana-informasiya xidmətinin funksiya və prinsiplərinin ətraflı öyrənilməsi təsdir edir ki, bu fəaliyyət o vaxt uğurla həyata keçirilə bilər ki, əqli mülkiyyət sahəsinin sənəd kütləsi və axınına, informasiya istifadəçilərinin tərkibi və onların sənəd-informasiya tələbatlarının xüsusiyyətlərinə verilən tələblər vaxtında aşkara çıxarılsın. Bu tələblərin kitabxanaçı (biblioqraf) tərəfindən lazımi səviyyədə təhlil olunmasına xüsusi diqqət yetirilsin. Paralel olaraq bu iş optimal şəkildə və elmi əsaslarla təşkil olunmalıdır.*

**Ədəbiyyat:**

1.Allahverdiyev S.Azərbaycan Respublikasının mülki hüququ: dərslik. C.3. K.4. Bakı, 2008, 700 s.
2.İsayev N.İntellektual mülkiyyət anlayışı və onun hüquqi qorunma sistemi. 1-ci məqalə [Elektron resurs]. - URL: http://www.musigi-dunya.az/new/read_ magazine.asp?
3.Mustafazadə M.“İntellektual mülkiyyət bazarının tənzimlənməsinin təkmilləşdirilməsi problemləri” mövzusunda magistr dissertasiyası: [Elektron resurs]. - URL: https://unec.edu.az/application/uploads/2018/11/Mustafazad-Mustafa-Mehman-o-lu.pdf
4.Seyidəliyev İ. Patentşünaslıq: dərs vəsaiti. Bakı, 2012, 246 s.

***Натиг Мурсалов***

**ФУНКЦИИ И ПРИНЦИПЫ БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ В ДОКУМЕНТАЛЬНО-ИНФОРМАЦИОННОМ ОБЕСПЕЧЕНИИ ИНТЕЛЛЕКТУАЛЬНОЙ СОБСТВЕННОСТИ**

**Резюме**

В статье исследуются общие особенности содержания и важность понятия интеллектуальной собственности. Впервые подробно исследуется роль библиотек в документально-информационном обеспечении интеллектуальной собственности. Научно проанализированы функции и принципы библиотечной службы по интеллектуальной собственности.

**Ключевые слова:** *интеллектуальная деятельность, авторское право, проект, патент, защита*

***Natig Mursalov***

**FUNCTIONS AND PRINCIPLES OF LIBRARY SERVICE IN DOCUMENTARY INFORMATION SUPPLY OF INTELLECTUAL PROPERTY**

**Summary**

The article explores the general content features and importance of the concept of intellectual property. For the first time, the role of libraries in the document-information provision of intellectual property is studied in detail. The functions and principles of the library service on intellectual property are scientifically analyzed.

**Key words:** *intellectual activity, copyright, project, patent, protection*

*Redaksiyaya daxil olma tarixi: 03.12.2021*
*Çapa qəbul olunma tarixi: 10.12.2021*

*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılov tərəfindən çapa tövsiyə olunmuşdur.*